1. **Tuqay meşələri Azərbaycanın hansı dövlət qoruğunda qorunur?**
A) Zaqatala qoruğunda
B) Qarayazı dövlət qoruğunda
C) Pirqulu qoruğunda
D) Hirkan qoruğunda
E) Türyançay qoruğunda

2. **Birinci məntəqədə günəş Qrinvic meridianmdan 6 saat əvvəl üfüqdə göründüyü halda, ikinci məntəqədə o Qrinviçdəkindən 2 saat gec görünür. Bu məntəqələr arasındakı coğrafi uzunluq fərqini tapın.**
A) 120° B) 80° C) 50°
D) 25° E) 140°

3. **Lənkəran ovalığında günəşli saatların illik miqdarının Arazboyu düzənliklərdən az olmasının səbəbi:**
A) Lənkəran ovalığının Arazboyu düzənliklərdən çox kiçik olması
B) Buludluğun çox olması
C) Mütləq hündürlüyünün az olması
D) Yer qabığının nisbətən qalın olması
E) Ərazidə endemik bitkilərin geniş yayılması

4. **Torpaqların məhsuldarlığının artırılmasına yönəldilən tədbirlər kompleksi adlanır:**
A) Akkumulyasiya B) Meliorasiya
C) İrriqasiya D) Plantasiya
E) Denudasiya

5. **Azərbaycanda neft hasilatının inkişaf etdirilməsi hansı sənaye sahəsinin inkişafına səbəb olur?**
A) üzümçülüyün inkişafına
B) yeyinti sənayesinin inkişafına
C) yüngül sənayenin inkişafına
D) kənd təsərrüfatının inkişafına
E) kimya sənayesinin inkişafına

6. **Bütövlükdə yarımadada yerləşən dövlətlər:**
A) Türkiyə, Yunanıstan, Malta, Kuba
B) Tailand, İspaniya, Oman, Cənubi Koreya
C) Malayziya, Sinqapur, Liberiya, Anqola
D) İspaniya, Nikaraqua, Somali, İndoneziya
E) Portuqaliya, İtaliya, Tunis, İran

7. **İEÖ və İOÖ-də demoqrafik siyasətin mahiyyəti:**
A) İEÖ və İOÖ-də əhalinin təbii artımının məhdudlaşdırılması
B) İEÖ-də şəhər əhalisinin sayını, İOÖ-də isə kənd əhalisinin sayını artırmaq
C) İEÖ-də əhalinin yaş tərkibində uşaqların sayının azaldılması
D) İEÖ və İOÖ-də əhalinin təbii artımının yüksəldilməsi
E) İEÖ-də əhalinin təbii artımının yüksəldilməsi, İOÖ-də isə təbii artımın məhdudlaşdırılması

8. **Bakıdan $0^0$ azimutla $75^0$ hərəkət edən səyyahın çatdığı coğrafi koordinatı və qət etdiyi məsafəni hesablayın:**
A) $60^0$ c.e, $100^0$ ş.u; 13000 km
B) $40^0$ şm.e, $70^0$ ş.u; 5200 km
C) $60^0$ şm.e, $130^0$ ş.u; 7500 km
D) $70^0$ şm.e, $10^0$ q.u; 7770 km
E) $65^0$ şm.e, $130^0$ q.u; 8325 km

9. **Bu ölkələrdən hansı buğda yığımına, kömür istehsalına, velosipedlərin sayına görə dünyada qabaqcıldır?**
A) Çin Xalq Respublikası B) Braziliya
C) Rusiya Federasiyası D) Argentina
E) Koreya Respublikası

10. **Şimal meşə qurşağında meşə sənayesi üzrə ixtisaslaşmış ölkələr:**
A) Kanada, Nikaraqua, Konqo
B) ABŞ, Rusiya, Kanada
C) Braziliya, İndoneziya, Rusiya
D) Türkiyə, İsveç, Finlandiya
E) ABŞ, Meksika, Kanada

11. **Dünya okeanına birbaşa çıxışı olmayan Asiya ölkəsi:**
A) Banqladeş B) Tailand C) Kamboca
D) Əfqanıstan E) Myanma

12. **Şimal tropiki ilə cənub tropiki arasındakı məsafə:**
A) 7381,5 km B) 2608,5 km
C) 14763 km D) 5217 km
E) 6899 km

13. **Özbəkistan hansı əlamətlərə görə Mərkəzi Asiyanın digər türk dövlətlərindən fərqlənir?**
***1. ərazisinin böyüklüyünə görə***
***2. əhalisinin sayına görə***
***3. kömür ehtiyatlarına görə***
***4. qızıl ehtiyatlarına görə***
***5. neft-kimya sənayesinin inkişafına görə***
***6. pambıq lifi istehsalına görə***
A) 1, 2, 4 B) 1,3, 5 C) 2, 4, 6
D) 1, 3, 6 E) 2, 3, 6